***"Media haqqında yeni qanun çağdaş medianın mahiyyətini, media subyektlərinin səlahiyyət və öhdəliklərini, jurnalistin kimliyini, dövlətin jurnalistikanın uğurlarının və təhlükəsizliyinin, jurnalistin isə hüquqlarının və sosial müdafiəsinin təminatçısı olduğunu təcəssüm etdirir. Dövlətyin media siyasətinin hədəfi olaraq, kütləvi kommunikasiya sahəsinin hüquqi əsaslarını müəyyən edən və normal fəaliyyətini tənzimləyən bu qanun ölkəmizdə peşəkar jurnalistikanın növbəti mərhələdə inkişafına güclü dəstək verəcək".***



# Media haqqında qanun milli jurnalistikamızın hüquqi istinadgahıdır

***Milli Məclisin deputatı Arzu Nağıyev Media haqında yeni qanun barədə bu mülahizələrinin davamında bildirdi:***

– Təbii ki, yeni qanunun prinsipial yeniliklərini, əsas hədəflərini jurnalistlərə və ictimaiyyətə lazımi səviyyədə çatdırmaq üçün zəruri maarifləndirmə işləri aparılmalıdır. Vacib məqamlardan biri kimi, xatırladım ki, hazırda Azərbaycan reallığını beynəlxalq aləmə çatdırmaq üçün bir neçə dildə jurnalistika fəaliyyətini təmin etmək, xarici media qurumlarının diqqətini ölkəmizə yönəltmək, onların bizə istinad etməsinə nail olmaq, dünyaya inteqrasiya baxımından kommunikativ şəbəkənin inkişafına təkan vermək önəmli məsələdir. Ona görə də düşünürəm ki, yeni qanunun müddəalarından irəli gələn tələblər informasiya sahəsində beynəlxalq əlaqələrin gücləndirilməsinə müsbət təsir edəcək.

Media nümayəndələrini, bütövlükdə, kütləvi auditoriyanı son vaxtlar narahat edən bir məqama da toxunmaq istərdim. Qanunda internet saytların və ya internet TV-lərin xüsusi lisenziya almasına, eynilə dövlət strukturlarının çap və ya onlayn nəşrlərinin yenidən qeydiyyatdan keçməsinə məcburiyyət nəzərdə tutulmur. Qanun əsas hədəfləri KİV-in peşəkar səviyyəsini yüksəltmək və cəmiyyət ilə jurnalist arasında neqativ münasibətlərin aradan qaldırılmasına şərait yaratmaqla qarşılıqlı inamı gücləndirməkdir.

Yeni qanunda media azadlığı anlayışı konstitusiya əsasları üzərində şərh edilmiş, media subyektlərinin, eləcə də jurnalistin hüquq və vəzifələri yeni şəraitə uyğun olaraq dəqiqləşdirilmişdir. Ölkənin media fəaliyyətinin mənzərəsini müəyyən etmək, qanunun müddəaları ilə media subyektlərinin münasibətlərini əlaqələndirmək baxımından vahid media reyestrinin yaradılması yeni sənəddəki ciddi yeniliklərindən birdir.

Media reyestrinin, yəni KİV-lərin daxil olacağı peşəkar bazanın yaradılması sahənin fəaliyyətini tənzimləməyi, qanunun verdiyi üstünlüklərdən istifadəni asanlaşdıracaq. Bununla media subyektləri aydın görəcəkdir ki, reyestrdə təmsil olunmaq onların səmərəli fəaliyyəti üçün əlavə stimullar yaradır. Qanunda müəllif hüquqlarının qorunması, plagiatın qarşısının alınması da müdia subyektlərinin qanuni maraqlarının dövlət tərəfindən qorunmasının göstəricisidir. Medianın çıxışlarında insanların şərəf və ləyaqətinin, işgüzar imicinin qorunmasını nəzərdə tutan müddəalar isə peşəkar jurnalistikanın cəmiyyətdə nüfuzunun yüksəldilməsinə xidmət edir.

Ümumiyyətlə, yeni qanunda media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarının, kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarının dəqiq və sistemli halda əks olunması media islahatlarının ahəngdar surətdə gerçəkləşməsinə normal şərait yaradacaq, milli jurnalistikamızın növbəti mərhələdə inkişafına ciddi təkan verəcək.

**"Bir ilə yaxın davam edən və kifayət qədər müxtəlif fikirlərin eşidildiyi müzakirələrdən sonra "Media haqqında Azərbaycan Respublikasının Qanunu" artıq qüvvəyə mindi. Bu qanunda milli mediamızın fəaliyyətinin yeni hüquqi əsasları, professional jurnalistikamızın başlıca hədəfləri necə əksini tapıb? Yeni qanun media subyektləri və jurnalistlər üçün hansı yeniliklərə meydan açır?"**

***Bu suallarla bağlı açıqlamasında Azərbaycan Respublikası Media İnkişafı Agentliyi media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli aşağıdakıları söylədi:***

– Qanun layihəsini mütəxəssislərlə birgə hazırlayan qurum kimi Medianın İnkişafı Agentliyi ötən müddətdə praqmatik fikirlər, faydalı təkliflər də eşitdi, sərt, bəzən barışmaz iradlarla da qarşılaşdı. Layihəni diqqətlə oxuyub danışanların mülahizələri başa düşülən idi, amma "oxumamışam, amma belə istəyirəm" deyənləri anlamaq asan deyildi. Bəziləri də qanun layihəsinin maddələrinə yox, keçmişin xoş olmayan xatirələrinə istinad edirdilər.

Yəni mediamızın intellektual baqajında nə vardısa, hamısı müzakirələr zamanı nümayiş etdirildi. Layihəni hazırlayan işçi



qrupu olaraq öz növbəmizdə cavabsız sual buraxmadıq. Səslənmiş heç bir fikir bizim üçün gözlənilməz deyildi, çünki ondan da sərt fikirləri özümüz səsləndirirdik. Günlərlə sürən bu müzakirələrdə həmin sərt sualların tutarlı cavabları tapılır və layihədə əks olunurdu. Nəhayət, parlamentin müvafiq komitələrində geniş müzakirədən sonra əsaslı mülahizə və təkliflərlə təkmilləşdirilmiş media haqqında qanun Milli Məclisdə qəbul edildi. Dövlət başçısı qanunu təsdiq edib, bu günlərdə yeni sənədin mətni kütləvi informasiya vasitələrində yayımlanıb.

Əvvəla, media haqqında yeni qanun ölkəmizin milli informasiya mühitinin sağlamlaşmasına və məlumat resurslarımızın güclənməsinə daha əlverişli şərait yaradır. İkincisi, qanunun müvafiq müddəaları jurnalistika üçün həyati əhəmiyyət daşıyan plüralizmin qorunmasına və jurnalistin sosial portretinin formalaşmasına, statusunun və imicinin yaxşılaşmasına, nüfuzunun güclənməsinə xidmət edir. Üçüncüsü, müəyyən edilmiş norma və tələblər media subyektlərində özfəaliyyət və qeyri-peşəkarlıqla əsl peşəkarlığın sərhədlərinin müəyyənləşməsinə kömək edəcək. Nəhayət, qanunun yaratdığı yeni imkanlar peşəkar jurnalistikada layiqli əmək münasibətlərinin möhkəmlənməsini, dövlətin medianın informasiya təminatını yaxşılaşdırmasını, qanuni güzəşt və imtiyazlarla medianın iqtisadi müstəqilliyini gücləndirməsini stimullaşdırır.

İlk addım olaraq, qanunun fəlayyətə başlaması ilə eyni gündə dövlət jurnalistlərə güzəştli ipotekadan faydalana bilmək hüququ verdi. Bu, Azərbaycan Prezidentinin media nümayəndələrinin sosial problemlərinə davamlı diqqətinin göstəricisidir. Dövlət hər hansı öhdəlik qoymadan özünün qulluqçusu, müəllimi, alimi, xüsusi nailiyyətləri olan idmançısı üçün nəzərdə tutduğu imtiyazları media nümayəndəsinə də şamil etdi. Bu, yalnız sosial siyasət deyil, eyni zamanda, jurnalist peşəsinin və bütövlükdə, medianın nüfuzunun yüksəldilməsinə yönəlmiş konkret bir addımdır.

Bütün bunlarla yanaşı, unutmamalıyıq ki, yeni qanun dövlətin media siyasətinin ümumi əsaslarını ifadə etməklə, jurnalistika mühitinə hüquqi-normativ yanaşmanın sistemli göstəricisidir. Jurnalist üçün baş hədəf milli maraqları əsas götürməklə, xalqın doğru-düzgün informasiyaya tələbatını peşəkar səviyyədə cavablandırmaqdır. Onun qazandığı böyük dəyər isə təmiz reputasiyasıdır, yaydığı sözə olan ictimai etimaddır. Media haqqında yeni qanun bu şərəfli missiyanı yerinə yetirmək üçün jurnalistin hüquqi istinadgahı və uğur təminatçısıdır.

***Hazırladı:***
***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***